# AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TƏRƏVƏZ VƏ BOSTAN BİTKİLƏRİNİN TOXUMÇULUĞUNUN PERSPEKTİVLƏRİ

**Şakir Quliyev, Məcid Adıgözəlov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, teti_az@mail.ru*

Tərəvəz və bostan bitkilərinin məhsuldarlığının və məhsulunun keyfiyyətinin yüksəldilməsində ən mühüm amillərdən biri yüksək məhsuldar, keyfiyyətli, müxtəlif ekoloji şəraitlərdə yüksək məhsul verən sort və hibridlərin əkilib becərilməsi və onların toxumçuluğunun elmi əsaslarla yaradılması təşkil edir.

Azərbaycan, o cümlədən də işğaldan azad olunmuş ərazilər tərəvəz və bostan bitkilərinin həm əmtəəlik, həm də toxum məhsulunun yetişdirilməsi üçün çox əlverişli təbii şəraitə malikdir. Belə ki, burada münbit torpaq sahələri və suvarma üçün kifayət qədər suyun olması bu bitkilərin məhsulunun istehsalına tam imkan yaradır. Ərazilərin cənub hissələri xüsusilə əlverişli şəraitə malikdir. Belə ki, burada yaz və yayın kifayət qədər isti və günəşli, payızın nisbətən isti, mülayim və yağıntılı, qışın isə şaxtasız keçməsi bu torpaqlarda bol və keyfiyyətli məhsul yetişdirilməsi üçün əlverişlidir. Əmtəəlik məhsulla yanaşı, burada bol və yüksək keyfiyyətli tərəvəz və bostan bitkiləri toxumunu da az zəhmət və xərclə əldə etmək olar.

Əsas tərəvəz bitkilərindən biri olan baş kələmin sortlarının yüksək keyfiyyətli toxumlarını iyun-iyulda səpib, iyulun sonu avqustun ortalarında əkdikdə həm əmtəəlik baş kələm məhsulu, həm də növbəti ilin yaz-yayında yüksək keyfiyyətli toxum məhsulu əldə etmək olar. Bu, qısa zaman ərzində - 11-12 ayda eyni sahədən həm əmtəəlik məhsul, həm də toxum məhsulu alınması və xeyli gəlir əldə edilməsi deməkdir. Bu bitkinin toxum məhsuldarlığı yüksək olduğundan (10-15 sent/ha) kiçik bir toxumluq sahədən əmtəəlik məhsul almaq üçün böyük bir sahəni toxumla təmin etmək olar, təsərrüfat gəlir əldə edər.

Daha geniş sahələrdə həm yaz, həm də təkrar yay əkin dövriyyələrində becərilən pomidor və bibər bitkilərindən toplanan meyvələrin həm toxumu, həm də şirə-ətli hissəsi istifadə olunur. Toxum çıxarılandan sonra qalan şirə-ətli hissədən müxtəlif şirələr, pastalar və s. konserv məhsulları alınmaqla istehsalın səmərəli olmasına nail oluna bilər.

Yerkökü, mətbəx çuğunduru və turp səpinləri daha çox gəlir əldə etməyə imkan verir. Yay səpinlərindən toplanan kökümeyvələr həm əmtəəlik, həm də toxumluq ola bildiyindən, müəyyən hissə satışa, müəyyən hissə isə toxumluq məqsədə yönəldilir. Toxumluqlar payızda və ya növbəti yazda əkilərək toxum materialı alınır. Eyni sahədən həm əmtəəlik məhsul alınır, həm də toxumluq kökümeyvələr seçilib digər sahədə əkilərək toxum götürülür. Həmçinin kökümeyvələri yerində seyrəldilib saxlamaqla da, eyni sahədən bir il ərzində həm əmtəəlik məhsul, həm də toxum almaq olur.

Bostan bitkiləri əsas qida məhsullarından biri hesab olunur, ona görə də geniş sahələrdə əkilib becərilməsinə ehtiyac vardır. Yetişdirilən toxumluq meyvələrdən toxum çıxarılandan sonra qarpız və yemişin ətli hissəsindən müxtəlif sukatlar, mürəbbələr, quru meyvələr və s. hazırlana bilər. Bu da əlavə məhsul alınmasına, təsərrüfatın inkişafına yol açar.